# SAMSUN ŞƏHƏRİNİN TARİXİ MÜHİTİNİN QORUNMASI PROBLEMLƏRİ VƏ HƏLLİ YOLLARI

**Mustafa Bayram Bekir**– doktorant, Memarlıq konstruksiyaları və abidələrin bərpası kafedrası, AzMİU, mustafabayram01@hotmail.com

**Xülasə.** Samsunşəhəri Qara dəniz sahilində qədim bir qəsəbə kimi uzun bir tarixi və mədəni keçmişə malikdir. Lakin 1950- ci ildə baş verən sürətli urbanizasiya və modernləşmə nəticəsində şəhərin keçmişinə aid tarixi və mədəni sərvətlərin əhəmiyyətli bir hissəsi məhv edilmişdir. Məqalədə Samsun şəhərinin tarixi irsinin qorunması, konservasiya problemləri və onların şəhərin müasir həyatında rolu müzakirə edilmiş və təkliflər irəli sürülmüşdür.Məlumdur ki, şəhərlərdə tarixi qurğuların qorunub saxlanması şəhərin turizm potensialını xeyli artırır. Bununla belə, məqalədə tarixi tikililərin (turizm, ənənəvi ticarət və sənətkarlıq, yaşayış, mehmanxana, yataqxana və s.) qorunmasını asanlaşdıracaq üsulların təşviqi və onlardan istifadənin məkan planlaşdırılması ilə müəyyən edilməsi təklif edilir. Tədqiqatda Samsun şəhərinin tarixi və mədəni özünəməxsusluğu üçün mühüm əhəmiyyət kəsb edən tarixi tikililər və bu abidələrin şəhərin davamlı inkişafı çərçivəsində qorunması müzakirə edilir. Sonda belə nəticəyə qəlmək olar ki, şəhərdəki tarixi binaların bərpası və yenidən istifadəyə verilməsi onların turizm baxımından potensial dəyərini üzə çıxaracaq.
**Açar sözlər:** abidə, tarixi şəhər, ictimai mərkəz, memarlıq obraz, rekonstruksiya, park

# PROBLEMS OF PRESERVATION OF HISTORICAL ENVIRONMENT OF SAMSUN CITY AND AND WAYS OF SOLUTION

**Mustafa Bayram Bekir-** PhD student, department of Architectural constructions and restoration of monuments, AzUAC, mustafabayram01@hotmail.com

**Abstract.** The city of Samsun has a long history and a cultural past as an ancient settlement on the Black Sea coast. However, as a result of rapid urbanization and modernization in 1950, a significant part of the city's historical and cultural heritage was destroyed. In the article, the preservation of the historical heritage of the city of Samsun, conservation problems and their role in the modern life of the city were discussed and proposals were put forward. It is known that the preservation of historical facilities in cities significantly increases the tourist potential of the city. However, the article proposes to promote methods that will facilitate the protection of historic buildings (tourism, traditional trade and crafts, housing, hotels, hostels, etc.) and to determine their use through spatial planning. The study discusses the historical buildings and the preservation of these monuments, which are important for the historical and cultural identity of the city of Samsun, as part of the sustainable development of the city. In the end, it can be concluded that the restoration and re- use of historic buildings in the city will reveal their potential value in terms of tourism.
**Keywords:** monument, historical city, public center, architectural image, reconstruction, park

**Giriş.** Samsun qədim zamanlardan insanların yaşadığı bir şəhərdir. Tarixin müxtəlif dövrlərində burada müxtəlif inanclara və mədəni quruluşa malik insanlar və icmalar yaşayıb. Bu gün Samsun şəhərinin tarixən formalaşmış strukturda qalması və zaman dəyişilməsində zənginləşərək mükəmməl sistem şəkli alması onun önəm kəsb edən bir məkan kimi fəaliyyətdə qalmasına bir səbəbdir. Buna sübut Samsun şəhərinin ictimai mərkəz təşkil edən məkanı, onun tarixi nüvəsi adlandırmaq olar. Lakin tərkib baxımdan o həmişə mürəkkəb bir məkan olmuşdur ki, öz ərazisində iri miqyaslı kompleksləri mədəni memarlıq abidələrini, dini obyektləri saxlaya bilmişdi [1]. Bu gün də Samsun şəhərinin baş plan layihəsində şəhər meydanı bir çox funksiyaları qalmaqdadır. Onun zəif tərəfi ancaq mövqedən asılı olaraq nəqliyyat sistemi ilə yaxşı əlaqəsinin olmamasıdır ki, bu onun tənzimlənməsi zəruriyyətini yaranmışdır.

**Əsasə hissə.** Qeyd etdiyimiz kimi yararlı təbii iqlim şəraiti, təbii resursları, tarixi arxeoloji abidələri olan Samsun şəhərini digər şəhərlərdən fərqləndirən onun ictimai mərkəzlərinin yerləşmə prinsipi, şəhər meydanlarının, şəhər planında xüsusi mövqe tutması səbəblərindən biri iqamətgahın, yəni idarəetmə hakimiyyəti təmsil edən saray kompleksidir ki, bunların hamısı şəhərin inkişafında böyük iz qoymuşdu.

Belə ki, İstanbul şəhəri bu baxımdan kafi sayılsa da Samsun şəhərində bu ictimai mərkəzin sərhədlərində hələ də sistemsiz yaranmış və yaranmaqda olan bəzi obyektlər var ki onların rasional və tarazlı paylaşmasına ehtiyac duyulur. Bu üzdən onun daha rasional təşkil olunmasının əlavə imkanları axtarılmalıdır [2]. İstanbul şəhərinin memarlıq- şəhərsalma problemləri həllinə bir çox alimlər araşdırmalar aparsalar da Samsun şəhərinin bu baxımdan təhlili çox səthi aparılmış və onun əlverişli təşkil edilmə prinsipləri hələ düzgün açıqlanmamışdır və ya zəif işıqlandırılmışdır [2].

Məqalədə vacib məsələ sayılan Samsun şəhərini yaradan faktorların bir çox aspeklərdən (tarixi, mənəvi, ənənəvi, memarlıq, sosial və s.) təhlilinin aparılması vacib sayılır (şək.1). Məqalədə daha çox şəhərin ictimai məkanının təhlili üstünlük təşkil etdiyindən onun tərkibində olan tarixi abidələrin hər birinin mahiyyət və məkan təşkilinə şəhərin memarlıq obrazına təsir gücü üzə çıxardılır. Lakin orada olan obyektlərin nə dərəcədə müasir zaman tələbində bərpa olunması və ya funksiyaların bir halda saxlanılması, digər halda isə tam başqa funksiya əldə edə bilməsi hələ də şübhə altındadır. Ona görə də şəhərin rekonstruksiya tədbirlərində onun ictimai məkanının önəmli fəaliyyəti baxımından daha rasional həlli yollarına aid yeni təkliflər irəli sürülməlidir [3].



**Şəkil 1.** Yeni məscid [3]

Əsas ana xətt kimi Samsun şəhərinin özünün yaranma tarixi çərçivəsində xronoloji olaraq 3 mərhələ və sonra axırıncı mərhələni də 3 yarım mərhələyə ayırmaq olar. Bu səbəbdən də məqalədə qədim eyni zamanda müasir sənaye mərkəzinin memarlıq tarixi irsinin xüsusiyyətinin açıqlanır, iqtisadi, şəhərsalma, ekoloji durumu qiymətləndiriləcək perspektiv inkişaf dərəcəsi, tikinti və abidələrin bərpa edilmə imkanları və üsulları üzə çıxardılır [4].

Tədqiqat xüsusi olaraq Samsun şəhərinin tarixi abidələri fonunda müasir şəhərsalma infrastrukturunun yeni imkanları nəzərə alınaraq yəni sənaye potensialı, aqrar- istehsalının inkişaf etmə imkanları və gözəl təbii şəraiti fonunda bir çox arxeoloji qazıntılar zamanı üzə çıxan təbii maddi abidələri hesabına beynəlxalq mahiyyətli turizm mərkəzi kimi inkişaf etdirilməsi təklif olunur [5].

Samsun şəhərinin aralı gözəl gölü sahilində Qara dəniz sahilində və ya çay kənarında tikilən memarlıq komplekslərinin (köhnə və təzə) memarlıq planlaşma xüsusiyyətinin saxlanılması lazım olarsa dəyərləndirilib bərpa və ya rekonstruksiya tədbirlərinin görülməsi məqalədə yeniləşmə yolları kimi baxılaraq onların əsas məqamlarının tapılması vacib sayılır. Onun çimərlikləri şəhərdən bir az aralıdır, lakin şəhər parklarının çox gözəl görüntüləri insanları cəlb edir. Şəhərin görməli yerlərinə Çam gölünə aid etmək olar. Şəhərdə arxeoloji parka qədim tarıtxana deyilən məkanın və Tekker mağarasını da aid etmək olar. Ona görə də bu gün Samsun iqtisadi cəhətdən yüksək səviyyəyə malik stabil və geniş tərkibli infrastrukturu olan bir şəhərdir. Şəhər yaxınlığında Qara dəniz və meşəliklərin varlığı yay mövsümündə turistlər üçün sevimli bir məkan təşkil edir. Onun nəqliyyat əlaqələri şəhəri Türkiyənin bir çox şəhərləri ilə birləşdirir və Qara dəniz boyu yerləşən Samsun şəhərini fərqləndirən və ona orijinallıq verən memarlıq abidələri ilə yanaşı onun təbii istirahət potensiallarıdır bu sahili milli koloriti olan maraqlı "bilgi turizmini" daha çox dəyərli edir. Şərq memarlığı ilə xarakterik olan Osman imperiyasının simvoluna çevrilən bir gözəl məkan gördüyümüz kimi çox şaxəlidir [7].

Məqalədə Samsun şəhərini hələ keçmişdə tanıdan ağac materiallarından tikilən qədim taxta evlərinin konstruktiv xüsusiyyəti və iç məkan həllərinin zəngin bədii- memarlıq tərtibatı, müxtəlif üsullarla bərpa edilməsinə dəyər verilir. Belə bir çox millətli şəhərdə yaşayış məhəllələri də öz əhalinin millətlərinin adlarına

uyğun adlanması, ixrac edilən malların məhəllə ustaları aid edilməsi aydın görünürdü. Bu gün onun istehsala daha çox texnoloji nailiyyətlər fonunda mexanikləşdirilib taxıl, pambıq, tütün məmulatlarının ixracı onun limanı hesabına yerinə yetirilir. Samsun şəhərinin Türkiyənin bütün bölgələri və şəhərləri ilə yaxşı əlaqələndirilməsinə imkanın olması şəhərdə yeni istiqamət almış tekstil sənayesində inkişafına təkan olmuşdur [6,7]. Şəhər ətrafında olan gözəl çimərliklər əhalinin dəniz səyahətlərini təmin edir və turistləri təbii meşəliklər əhatəsində olan şəlalələrlə tanış edir. Şəhər parkları muzeyləri onun mədəni- maddi dəyərini təsdiqləməklə şəhərin tarixi irsini və xalq memarlıq abidələrinin nümunələrini nümayiş etməyə imkan verir.

Məqalənin nəticə hissəsində Samsun şəhərində fəaliyyət göstərən Osmanlı imperiyasının yetişdikləri dini memorial abidələrinin vəziyyəti təhlil edilməklə onların həcmi- məkan həlli xüsusiyyəti açıqlanır yaşayış massivlərinə aid olan müxtəlif tarixi mərhələlərdə və illərdə tikilən yaşayış binalarının iqlimə uyğun cəhətləndirilmə dərəcəsi göstərilir [8]. İmkan dairəsində iqlim nəzərə alınaraq onların memarlıq həllində ikitərəfli küləklənməyə imkan verən planlaşma üsulları və onların üstünlük cəhətləri ön plana çəkilir ki, sonrakı tikililərdə bu nəzərə alınaraq komfortlu, yüksək səviyyəli evlər layihələndirilsin və ümumilikdə şəhər obrazını yerləşdirilməsinə kömək etsin. Abidələrin özlərinin bəzən funksiyalarının dəyişilməsi və muzeyləşdirilməsi də məsləhət görülür (şək.2).



**Şəkil 2.** Samsunun Batı Parkında qədim döyüşçülərin (Amazonların) xatirəsinə abidə [8]

Qeyd etmək lazımdır ki, Samsun şəhərinin inşaat sahəsində ən önəmli amil onun bir çox cəhətdən özünü doğruldan yerli şəraitidir ki, onun səviyyəsində yaşayış evləri ən yaxşı cəhətlənmə ala bilir. Məsələn, çox seksiyalı evlərin tikintisinin zəif cəhətləri bu cəhətlənmə sayəsində iki tərəfli küləklənməni təmin etməklə həm də çox mənzilli ev tikintisinə izdivac verir və daxili planlaşma xüsusiyyətində mənzillərdə olan otaqların azad yerləşmə sanitar qovşağının iki yerdə verilməsinə və bilavasitə yataq otaqları ilə birbaşa ünsiyyətinə imkan verir. Digər tərəfdən Samsun şəhərində təbii yaşıllığın çoxluğu dəniz havası yay sahələrinin cənub və şimala yönəlməsinə imkan verir. Bu üzdən də dərin kölgəliklər yaradan eyvan formaların verilməsi yaşayış tikintisi üçün səciyyəvidir. Dənizin yaxınlığı isə insolyasiya rejiminin yaradılmasına kömək etməklə həm də güclü şimal küləklərindən qızmar günəş şüalarından otaqları müdafiə edir. Bu üzdən evlər inşasında qarışıq mərtəbəli tikintinin şəhərin şimal və cənub rayonlarında aparılması çox əlverişlidir. Belə ki, şəhərin tarixi mərkəzində azmərtəbəli ənənəvi üsulla aparılan evləri üstünlük təşkil etdiyindən son zamanlar onlara fon olaraq tək- tək yüksək mərtəbəli bir bloklu evlərin tikilməsi çox yaxşı nəticə verir və panoram baxımından yaşayış massivlərinin şəhər obrazının yaranmasında kifayət qədər böyük rol oynayır. Bu halı dəniz kənarındakı zolaqların tikintisinə də şamil edilməsi yaxşı olardı ki, dəniz mehi yaşayış məhəllələrinin dərinliyinə gedə bilsin. Belə yanaşma hesab edirik ki, şəhərin yaşayış tikintisində orta səviyyəli komfortluq şəraitinin yaradılmasına imkan verə bilər. Şəhər kənarında hələ də öz ənənəvi memarlığı ilə fərqlənən və bu gün abidə statusuna yüksələn ağac materiallarından yığılan taxta evlər onlarla yanaşı şəhərin rabada hissəsində yerləşən memorial kompleks «pir» yerləri də şəhərin sübutları çox olan «qoruq zonası» adlandırıla bilər. Bu zonada çox düşünülmüş seçmə dəyişikliklərin aparılması bəzi abidələrin bərpasına imkan yaratmaqla, eyni zamanda onlarda seçmə rekonstruksiya tədbirlərinin tətbiqi üsulu ilə bəzilərinin renovasiya yəni hissəli yeniləşməsinə imkan yarada bilər. Samsun şəhərini məşhur edən onun muzeyləridir ki, onların formalaşmasına və fəaliyyət göstərməsinə məhz Samsun şəhərinin arxeoloji mahiyyət daşıyan təbii abidələridir.

Şəhər tikintilərinin bədii memarlıq tərtibatı bir çox cəhətdən təbii və yerli şəraitin təsirində formalaşmışdır. Bu obyektləri cəlbedici edən yerli tikinti materiallarıdır ki, onların sintezi texnoloji proseslərin qatılması ilə təsiredici müqavimətinin çoxalması demək olar ki, həmişə aydın görünür. Digər tərəfdən qədimliyini sübut edən yerli meşə materialları bacarıqlı ustaların sayəsində uzunömürlü və maraqlı yaşayış tikintiləri təqdim edirdi. Milli parklar, Ataqum çimərliyi, Tuşulus parkı da bu məkanın dəyərini təsdiqləyir. Onlar birlikdə Osman imperiyasının orta əsr tikililərini (təbii, tarixi, dini, yaşayış, məişət və s.) simvollaşdırır və onların ornamental təqdimatını eksponat kimi muzeylərdə sərgiləyir. Bu mənada xüsusi diqqəti abidələrin giriş çərçivələrinin bədii tərtibatı çəkir [12]. Şəhərsalma xüsusiyyəti abidələrin yerləşməsində özünü göstərsə də iç məkanların bədii tərtibatı daha zəngindir. Bəzilərində bu tərtibat özünü dekorativ bəzəkdə (Bandırma muzeyin kayutalarında) digərlərində bunlar daha çox komfortluq təşkilində əks olunur və ya konstruktiv elementlərin geniş funksiyaları həllində özünü biruzə verir [13]. Ayrı- ayrı memarlıq abidələrində bu özünü fərqli elementlərdə göstərirdi. Məsələn, onların fasadlarını günəşdən qoruyan bədii tərtibat vasitəsi kimi çıxış edən damaltı kronşteynlərdə şaquli yüngül materiallardan hazırlanmış ekranlarda balkonlarının piləstrlarında, portalların ornamental naxışlarında özünü biruzə verir.

**Nəticə.** Şəhər mühitinin abidələr arası ərazilərinin abadlaşdırılmasında şəhərin daxilində olan su komponentlərinin rolu böyükdür və xüsusi yer tutur. Mühiti cəlbedici edən abidələrin ətrafında onların məkan mühitini dolğunluq gətirən kiçik memarlıq həcmləri və xidmət köşkləridir. Beləliklə, görürük ki, istər şəhərin təbii tarixi obyektləri mühit təşkili arxeoloji tapıntıları və ya bədii tərtibat baxımdan abidələrin obrazlarını zənginləşdirən landşaft xidmət formaları şəhərin vizual qavranılmasına müsbət təsir göstərir. Lakin burada qeyd etdiyimiz kimi yerli ənənələrin saxlanılması və qorunması da ən vacib məsələlər kimi ön plana çəkilir. Yaxınlıqda odan «Cam» gölündə müxtəlif sahil tərtibatı gündəlik istirahətin və asudə vaxtın çox maraqlı keçməsinə imkan vermişdir. Beləliklə, deyə bilərik ki, məqalədə Samsun şəhərinin təbii və süni dəyərlərinin təfsilatlı təhlili verilmiş və onun daxilində olan abidələr memarlıq- planlaşma xüsusiyyətləri bir çox aspektlərdən araşdırılmışdır.

**Ədəbiyyat**

1. Akengin H. Changing the Influence Areas of Cities According to Transportation Systems: Samsun Example. Samsun: Samsun Metropolitan Municipality Department of Culture and Social Affairs Publications, 447- 462p, 2013
2. Akinchi H., Doan S., Kilicholu C., Temiz M. Serhan Production of landslide susceptibility map of Samsun (Turkey). City Center by using frequency ratio method, International Journal of the Physical Sciences, № 6(5), 1015- 1025p, 2011
3. Akyol C. The contribution of museums and ruins to provincial tourism around Samsun: Proceeding of Samsun Symposium, Samsun, 2011
4. Bayram M. Samsun- the city of ancient history and modernity of Turkey, Vestnik KazGASA (Kazakh Leading Architectural Academy) №3(69), 78- 85p, 2018
5. Bayraktar M.S. Development of Turkish Architecture in Samsun. From the Past to the Future. In C. Yılmaz (Ed.). Samsun, 399- 426p, 2006

6. Doyuran V., Lunel T., Altıner D., Kochyiit A. Microzonation studies for Samsun metropolitan area, Turkey Bull. Geol. Soc. 3- 103p, 1985
7. Hüseynova S.X., Pirverdiyeva L.R. Salyanın memarlıq abidələri, AzMİU- nun Elmi əsəsrlər jurnalı, №1, 46- 50s, 2011
8. Koch Sh. According to R. Vadala, Samsun in the Seljuk, Ottoman and Republican Period, Samsun Ondokuz Mayıs University, №2, 181– 189p, 1987
9. Tellioglu I. Historical period of Turkish settlement in Samsun // Turkish studies- International Periodical for The Languages, Literature and History of Turkish or Turkic, №9(4), 1107- 1117p, 2014
10. Yilmaz A., Gul S. Historical Heritage and Urban Conservation in Samsun City // Journal of Ottoman Legacy Studies (OMAD). №5(13), p.49- 67. DOI: 10.17822/omad.2018.110, 2018
11. Yilmaz A. New development areas of Samsun city, Turkish geography journal, №42, 59- 72p, 2004
12. https://turktrip.ru/samsun
13. https://turizm.world/tureckij-gorod-samsun.html

**References**

1. Akengin H. Changing the Influence Areas of Cities According to Transportation Systems: Samsun Example. Samsun: Samsun Metropolitan Municipality Department of Culture and Social Affairs Publications, 447- 462p, 2013
2. Akinchi H., Doan S., Kilicholu C., Temiz M. Serhan Production of landslide susceptibility map of Samsun (Turkey). City Center by using frequency ratio method, International Journal of the Physical Sciences, № 6(5), 1015- 1025p, 2011
3. Akyol C. The contribution of museums and ruins to provincial tourism around Samsun: Proceeding of Samsun Symposium, Samsun, 2011
4. Bayram M. Samsun- the city of ancient history and modernity of Turkey, Vestnik KazGASA (Kazakh Leading Architectural Academy) №3(69), 78- 85p, 2018
5. Bayraktar M.S. Development of Turkish Architecture in Samsun. From the Past to the Future. In C. Yılmaz (Ed.). Samsun, 399- 426p, 2006
6. Doyuran V., Lunel T., Altıner D., Kochyiit A. Microzonation studies for Samsun metropolitan area, Turkey Bull. Geol. Soc. 3- 103p, 1985
7. Hüseynova S.X., Pirverdiyeva L.R. Salyanın memarlıq abidələri, AzMİU- nun Elmi əsəsrlər jurnalı, №1, 46- 50s, 2011
8. Koch Sh. According to R. Vadala, Samsun in the Seljuk, Ottoman and Republican Period, Samsun Ondokuz Mayıs University, №2, 181– 189p, 1987
9. Tellioglu I. Historical period of Turkish settlement in Samsun // Turkish studies- International Periodical for The Languages, Literature and History of Turkish or Turkic, №9(4), 1107- 1117p, 2014
10. Yilmaz A., Gul S. Historical Heritage and Urban Conservation in Samsun City // Journal of Ottoman Legacy Studies (OMAD). №5(13), p.49- 67. DOI: 10.17822/omad.2018.110, 2018
11. Yilmaz A. New development areas of Samsun city, Turkish geography journal, №42, 59- 72p, 2004
12. https://turktrip.ru/samsun
13. https://turizm.world/tureckij-gorod-samsun.html

Redaksiyaya daxil olma /Received 17.01.2022
Çapa qəbul olunma /Accepted for publication 17.02.2022

*Məqaləyə istinad: Mustafa B.B. Samsun şəhərinin tarixi mühitinin qorunması problemləri və həlli yolları. Elmi Əsərlər jurnalı AzMİU, s. 26-30, N1, 2022*
*For citation: Mustafa B.B. Problems of preservation of historical environment of Samsun city and and ways of solution. Journal of Scientific Works/ Elmi eserler. AzUAC, p. 26-30, N1, 2022*